# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

# “FTİZİATRİYA”

fənni üzrə fəlsəfə doktoru imtahanının

# PROQRAMI

hazırlıq istiqaməti: **“TİBB ELMLƏRİ”**

proqramın istiqaməti: **3228.01 “FTİZİATRİYA”**

**B A K I - 2022**

**Ftiziatriya üzrə fəlsəfə doktoru imtahanının proqramı**
**tibb üzrə fəlsəfə doktoru, dosent R.İ.Bayramovun ümumi elmi rəhbərliyi ilə aşağıdakı müəlliflər tərəfindən hazırlanmışdır**


Azərbaycan Tibb Universitetinin
"Ağciyər xəstəlikləri" kafedrasının müdiri,
tibb üzrə fəlsəfə doktoru, dosent **Bayramov Rafiq İdris oğlu**

Azərbaycan Tibb Universitetinin
"Ağciyər xəstəlikləri" kafedrasının
dosenti, tibb üzrə fəlsəfə doktoru **İsmayılzadə Ceyhun Möhübbət oğlu**

Azərbaycan Tibb Universitetinin
"Ağciyər xəstəlikləri" kafedrasının
assistenti, tibb üzrə fəlsəfə doktoru **Qədimova Zülfü Şaiq qızı**

**MƏZMUNU**

Ümumi qaydalar:

**Bölmə I.** Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri

**Bölmə II.** Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar

**Bölmə III.** Fəlsəfə doktoru imtahanı proqramının məzmunu

**Fəsil 1.** Ftiziatriyaya giriş

**Fəsil 2.** Ftiziatriyanin fundamental və nəzəri əsaslari, vərəmin profilaktikasi və aşkarlanmasi.

**Fəsil 3.** Tənəffüs orqanları vərəminin klinik formalari. Ağciyərdən kənar vərəm.

Fəsil 4. Vərəmin kəskin və xronik ağirlaşmaları.

**Fəsil 5**. Ağciyər vərəminin yanaşı xəstəliklərlə gedişi.

**Fəsil 6.** Vərəmin müalicəsi.

**Fəsil 7.** Azərbaycanda vərəm əleyhinə mübarizənin təşkili.

**Bölmə IV.** Tədris-metodik və informasiya təminatı

**Bölmə V.** Qiymətləndirmə meyarları

**Bölmə VI.** Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

# ÜMUMİ QAYDALAR

Doktorantura ali təhsil bazasında elmi və elmi-pedaqoji kadr hazırlığını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir. Doktorantura təhsili ali təhsilin ən yüksək pilləsi olaraq ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalar vasitəsilə həyata keçirilir.

Ftiziatriya fənni "Ftiziatriya" ixtisası, 3228.01 – "Ftiziatriya" istiqaməti proqramı üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlığının variativ hissəsinə aid klinik fəndir.

"Ftiziatriya" fənninin öyrənilməsi bakalavr və rezidentura hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır. Proqramın əsasını aşağıdakı fəsillərin əsas müddəaları təşkil edir: "Ftiziatriyaya giriş", "Ftiziatriyanın fundamental və nəzəri əsasları, vərəmin profilkatikası və aşkarlanması", "Tənəffüs orqanları vəreminin klinik formaları. Ağciyərdən kənar vərəm", "Vərəmin mülaicəsi" "Azərbaycanda vərəm əleyhinə mübarizənin təşkili"

"Ftiziatriya" fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

"Ftiziatriya" fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

"Ftiziatriya" fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

"Ftiziatriya" fənni fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

3228.01 - "Ftizatriya" ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi tibb sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin ftiziatriya sahəsində tədqiqatın müasir elmi metodlarına yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu –** vərəmli xəstələrin həyat fəaliyyətinin nəzəri əsaslarının tədqiqi, eksperimental modelləşdirmə şəraitində və klinik müşahidələr əsasında vərəmin yaranma səbəbləri və şəraiti, inkişaf mexanizmləri və nəticələrinin müəyyənləşdirilməsi, habelə adekvat, müasir və daha effektiv yeni müalicə üsullarının işlənib hazırlanması, vərəmin aşkarlanması və profilaktikası, vərəmin diaqnostikasında müasir müayinə üsullarının istifadəsi, epidemioloji proseslərin öyrənilməsi.

**Tədqiqatın obyekti** – Vərəmli xəstələr, laborator heyvanlar, tibbi sənədlər. Vərəmin inkişafı  səbəblərinin və şəraitinin, inkişaf mexanizmlərinin və eksperimental klinik şəraitdə aparılan tədqiqatlar əsasında aydınlaşdırılması ftiziatriya sahəsində klinik tibbin inkişafına, yeni müalicə və profilaktika metodlarının işlənib hazırlanmasına zəmin yaradır.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının – 3228.01 - "Ftiziatriya" istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

− elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoru imtahanının verilməsi prosesində 3228.01 - "Ftiziatriya"  hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının - doktoranturada elmi-pedaqoji kadrların

hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu təyin etmək;

– doktorantın vərəmin inkişaf mexanizminin, gedişinin və nəticəsinin ümumi qanunauyğunluqları, vərmin terapiya və profilaktikası prinsipləri haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək;

– doktorantın ftiziatriyaya aid olan məsələləri, vərəmin epidemiologiyası, etiologiyasını, patogenezini, ağciyər vərəminin formalarını, ağciyərdən kənar vərəmin profilaktikası və müalicəsi prinsipləri, diaqnostikası, differensial diaqnostika sahəsində olan biliyin qiymətləndirilməsi;

– doktorantın tədqiqat metodlarını müstəqil öyrənmək, müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, əldə olunan bilikləri klinikada tətbiq etməyi bacarmaq; klinik təfəkkürün metodik və metodoloji əsaslarını hazırlamaq qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

– müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

– ftiziatriya sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

– Ftiziatriya sahəsində nəzəri, klinik və eksperimental tədqiqatların metodologiyasının mənimsənilməsi;

– elmi tədqiqatlarda ftiziatriya elminin nəzəri əsaslarından istifadə etmək qabiliyyəti.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**bilməlidir:**

- seçdiyi istiqamətdə elmi tədqiqatların məqsədlərini, onların təşkilinin təməl prinsiplərini və təşkili üsullarını;

- ftiziatriya sahəsində əsas müasir tendensiyaları, ftiziatriyanın müasir bəşəri problemlərin həllində rolunu;

- laborator işlərin aparılmasının təhlükəsizlik texnikasını;

- klinik avadanlığın əsas növlərini;

- "Daxili xəstəliklər" və o cümlədən "Ftiziatriya" və əlaqəli elmlərin fundamental əsaslarını;

- müxtəlif məqsədlərdə tədqiqat nəticələrinin və onların müqayisəli qiymətləndirilməsi əsasında əldə edilmiş informasiyanın təqdim edilməsi və ötürülməsi üsullarını;

- ftiziatriyada tibbi etika və deontologiyanın əsaslarını;

- tənəfüs sisteminin funksional vəziyyətinin klinik instrumental və laborator diaqnostikasının ümumi prinsipləri və əsas üsullarını;

- tənəffüs sistemində pozuntuların bioloji əsaslarını;

- əsas ağciyər xəstəliklərinin patofiziologiyasını;

- ağciyər xəstəliklərinin patoloji anatomiyasını;

- vərəmin müxtəlif formalarının farmakoterapiyasının əsaslarını;

**bacarmalıdır:**

- tənəffüs sisteminin xəstəliyi olan pasiyentin anamnezinin toplanmasını, xüsusi müayinə üsullarının (laborator, instrumental, fuksional, tibbi-genetik) zərurətinin olmasını təyin etməsini;

- onların aparılmasının təşkil edilməsini və nəticələrin təhlil edilməsini;

- differensial diaqnozun aparılmasını;

- xəstənin vəziyyətinin ağırlıq dərəcəsini qiymətləndirmək və onun səbəbini

təyin edib, onu bu vəziyyətdən çıxartmaq üçün lazım olan tədbirlər görməyi;

**vərdişlər:**

- terapevtik və təşkilatı tədbirlərin (stasionarda yerləşdirmə, ambulator müalicə, konsultativ qəbul və ya qeydiyyata alınma) genişliyini və ardıcıllığını təyin etmək;
- xəstənin aparılmasının sxemi, plan və taktikasının, təyin olunmuş farmakoterapiyaya göstəriş və əks göstərişlərin əsaslandırılması;
- xəstəyə dinamik nəzarət və xəstənin təlimi planının işlənməsi;
- verilmiş mövzu üzrə planın qurulması, tədqiqat üsullarının və nəticələrin işlənməsi metodlarını təklif etmək;
- verilmiş mövzu üzrə elmi nailiyyətləri təsvir edən materialı seçmək;
- elmi-tədqiqat işinin mövzusuna uyğun laborator avadanlıqda işləmək;
- verilən mövzuya görə iş planını qurmaq, riyazi planlaşdırma üsullarını istifadə etmək, alınan nəticələri təhlil etmək;
- elmi məlumatın tənqidi təhlilin köməyi ilə əsaslı nəticələri əldə etmək;
- diaqnostik laborator tədqiqatların nəticələrini təhlil etmək

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHAN PROQRAMININ MƏZMUNU

## FƏSİL 1. FTİZİATRİYAYA GİRİŞ

Ftiziatriya klinik təbabət elmi və tədris fənni kimi. Ftiziatriyanın tibb elmində yeri. Ftiziatriya fənni, vəzifələri və metodları. Vərəmin epidemiologiyası, etiologiyası, inkişaf səbəbləri, yayılma qanunları və mexanizmləri, insan orqanizmində vərəm zamanı patoloji proseslərin inkişafı, profilaktikası, diaqnostikası, müalicəsi və xəstələrin reabilitasiyası üsulları. Ftiziatriyada istifadə olunan vərəmin aşkarlanması, müayinəsi, müalicəsi və profilkatikasının müasir metodları. Elmi araşdırmaların aparılmasının mənəvi-etik deontoloji aspektləri.

Ftiziatriyanın əsas hissələri:

ftiziatriyanın fundamental və nəzəri əsasları, vərəmin profilklatikası və

aşkarlanması; vərəmin klinik formaları, vərəmin kəskin və xronik ağırlaşmaları, ağciyərdən kənar vərəm; vərəmin müalicəsi; Azərbaycanda vərəm əleyhinə işin təşkili.

**FƏSİL 2. FTİZİATRİYANIN FUNDAMENTAL VƏ NƏZƏRİ ƏSASLARI. VƏRƏMİN PROFİLAKTİKASI VƏ AŞKARLANMASI.**

Vərəmin təsnifatının qurulması prinsipləri. Vərəmin əsas klinik formalarının, vərəm prosesinin xüsusiyyətlərini və onun ağırlaşmalarını, keçirilmiş vərəmin sağalmasından sonra əmələ gələn dəyişiklikləri təsvir edən təsnifat bölmələri. Vərəm diaqnozunun yazılması. Xəstəliklər və sağlamlıqla bağlı olan Beynəlxalq Statistik Təsnifatın "Vərəm" bölməsi.

Tənəfüs üzvlərinin və başqa lokalizasiyalı vərəmin diaqnozunun qoyulmasında mikrobioloji və histoloji verifikasiyanın əhəmiyyəti.

Vərəmin profilaktikasına və aşkarlanmasına müasir yanaşma. Əhalinin profilaktik müayinəsi. Tuberkulindiaqnostika, vərəmin bakterioloji və rentgenoloji diaqnostikası: "Vərəm" diaqnozunun verifikasiyası. Vərəmin profilaktikası: vaksinasiya, revaksinasiya, kimyəvi profilaktika. Vərəm infeksiyası ocağında aparılan iş.

Tənəffüs orqanları vərəmi olan xəstələrin ümumi müalicə şəbəkəsi və vərəm əleyhinə müəssisələrində müayinəsi mərhələsində diaqnostikası. Ftiziatriya klinikasında istifadə olunan bakterioloji, morfoloji, immunoloji, molekulyar-genetik müayinə üsulları. Şüa diaqnostikası.

Endoskopik müayinə üsulları.

**FƏSİL 3. TƏNƏFFÜS ORQANLARI VƏRƏMİNİN KLINIK FORMALARI. AĞCIYƏRDƏN KƏNAR VƏRƏM.**

Uşaqlarda və yeniyetmələrdə vərəm intoksikasiyası. İlkin vərəm kompleksi. Döş qəfəsi daxili limfa düyünlərinin vərəmi. Səpələnmiş vərəm. Miliar vərəm. ocaqlı vərəm. Ağciyərlərin infiltrativ vərəmi. Kazeoz sətəlcəm. Ağciyər tuberkuloması. Kavernoz vərəm. Fibroz-kavernoz vərəm. Sirrotik vərəm. Vərəm

plevriti, empiyema. Yuxarı tənəffüs yollarının vərəmi. Qırtlağın vərəmi. Traxeya və bronxların vərəmi. Beyin qişalarının və mərkəzi sinir sisteminin vərəmi. Sümük və oynaqların vərəmi. Sidik-tənasüll orqanlarının vərəmi. Periferik limfa düyünlərinin vərəmi. Abdominal vərəm. Dəri və dərialtı piy toxumasının vərəmi. Gözün vərəmi.

## FƏSİL 4. VƏRƏMİN KƏSKİN VƏ XRONİK AĞIRLAŞMALARI

Qanhayxırma və ağciyər qanaxması. Spontan pnevmotoraks. Vərəmli xəstələrdə amiloidoz. Ağciyərin atelektazı. Bronxial və torakal fistulalar. Ağciyər-ürək çatışmazlığı. Ağciyərin ödemi.

## FƏSİL 5. AĞCİYƏR VƏRƏMİNİN YANAŞI XƏSTƏLİKLƏRLƏ GEDİŞİ.

Vərəm və şəkərli diabet. Vərəm və tənəffüs orqanlarının xronik qeyri-spesifik iltihabi xəstəlikləri (Xronik obstruktiv bronxit. Bronxial astma. Bronxoektaziya. Sətəlcəm). Böyrək köçürülməsi, açıq ürək əməliyyatları və vərəm. Steroid vərəm. Ağciyər vərəmi və mikoz. Ağciyər vərəmi və xərçəng. Vərəm və qazanılmış immun çatışmazlığı sindromu. Vərəm və alkoqolizm. Vərəm və arterial hipertoniya. Vərəm və mədə, 12-barmaq bağırsağının xorası. Vərəm zamanı sinir-psixi pozğunluqlar. Vərəm və hamiləlik.

## FƏSİL 6. VƏRƏMİN MÜALİCƏSİ

Kimyəvi terapiya. Vərəm əleyhinə antibiotiklər və sintetik preparatlar, dozaları, qəbul üsulları, preparatların kombinasiyaları.

Vərəmin kimyəvi terapiyasının əsas prinsipləri. İntensiv və davamedici kimyəvi terapiyanın mərhələləri.

Kimyəvi terapiyaya nəzarət.

Patogenetik və simptomatik terapiya.

Vərəm əleyhinə preparatların yan təsirləri və onların profilaktikası və müalicəsi. Dərmanlara həssas və rezistent vərəm mikobakteriyası olan xəstələrin müalicəsinin xüsusiyyətləri.

Kimyəvi terapiyanın standart və fərdi rejimləri, vərəmli xəstələrin müalicəsinin təşkili.

Stasionar və ambulator müalicəyə göstərişlər. Ambulator kimyəvi terapiyanın təşkili və aparılması. Kollapsoterapiya. Müalicəvi pnevmotoraks və pnevmoperitoneum, göstərişlər və effektivliyi. Cərrahi müalicə. Ağciyər vərəmi zamanı cərrahi müdaxilə növləri. Cərrahi müdaxilələrə göstərişlər və onların effektivliyi.

## FƏSİL 7. AZƏRBAYCANDA VƏRƏM ƏLEYHİNƏ MÜBARİZƏNİN TƏŞKİLİ.

Azərbaycanda və dünyada vərəm xəstəliyinin inkişafının tarixi. Vərəm xəstəliyinin epidemioloji prosesinin xüsusiyyətləri və onun inkişafını təmin edən faktorlar. Sosial-iqtisadi faktorların rolu. İnkişaf etmiş və inkişaf edən ölkələrdə vərəm xəstəliyi. Vərəmə görə sosial risk qrupları. Dərmanlara davamlı mikobakteriyaların vərəmin epidemiologiyasında rolu. Vərəmə yoluxma, xəstələnmə, xəstəlik və ölüm kimi vərəmin epidemioloji statistik göstəriciləri, onların epidemioloji vəziyyətin qiymətləndirilməsində rolu. Vərəmə görə epidemioloji vəziyyətin təhlilində müasir texnologiyaların (monitorinqin) rolu. Azərbaycanda vərəmə görə əsas qanunverici aktlar. Azərbaycanda vərəmlə mübarizənin proqramı. Böyüklərdə, uşaqlarda və yeniyetmələrdə vərəmin diaqnostikasının təşkil olunması və aparılması. Vərəm xəstəliyi inkişafının riski olan böyüklərin, uşaq və yeniyetmələrin aşkarlanması və onların vərəmə görə müayinəsinin metodikası. Ambulator şəraitdə müalicə alan xəstələrə nəzarət. Dispanserin vərəm ocağında apardığı iş. Vərəm əleyhinə dispanser tərəfindən vərəmli xəstələrin vaxtında aşkar edilməsi və profilaktikası məqsədilə ümumi müalicə-profilaktika şəbəkəsinin apardığı işə təşkilati-metodik rəhbərlik. Sanitar-epidemioloji nəzarət müəssisələrinin vərəm əleyhinə apardıqları iş. Vərəmə görə vəziyyəti xarakterizə edən vərəmlə xəstələnmənin epidemioloji göstəricilərin dinamikasının təhlili.

BÖLMƏ IV . Tədris-metodik və informasiya təminatı.

Əsas ədəbiyyat

1. “Vərəm” Ə.B. İnsanov (2004)
2. “Ftiziatriyadan testlər” N.Ə.Abbasov, R.İ.Bayramov, C.M.İsmayılzadə, A.M.Məmmədova, Ş.M.Vəliyeva (2015)
3. “Vərəm” F.M.İsmayılov, N.Ə.Abbasov (2004)
4. “Ftiziatriya” F.Ş.Quliyev (2010)
5. “Vərəmli xəstələrin erkən aşakrı, müalicəsi və müşahidəsi” Y.Ş.Şıxəliyev (2015)
6. “Vərəm xəstəlikləri” Y.Ş.Şıxəliyev (2016)

Əlavə ədəbiyyat

1. Перельман М.И. Фтизиатрия. Национальное руководство. – М: «ГЭОТАР-Медиа», – 2010. – 512с
2. Перельман М.И., Богаделникова И.В. Фтизиатрия: Учебник. – М:, «ГЭОТАР-Медиа», – 2010. – 448с
3. Сельцовский П.П., Литвинов В.И. – Социальные аспекты эпидемиологической ситуации по туберкулезу. – М – Медицина и жизнь. - 2004.-222с.
4. Фтизиатрия: учебник /В.Ю.Мишин [и др.]. -2-е изд., перераб.и доп. – М.: ГЭОТАР-Медиа, – 2016. – 520с.
5. Фтизиатрия:/В.А.Кошечкин; М-во образования и наука Р.Ф. – М.: ГЭОТАР-Медиа, – 2016. – 302с
6. Crofton and Douglas’s Respiratory Diseases:Fifth Edition Tuberculosis: Pathogenesis, Epidemiology and Prevention/Leitch A.G. – 2008

İnternet mənbələri

1. Ağciyər vərəminin kimyəvi terapiyası üzrə klinik protokol. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. Bakı. - 2021. - 80. Available from: https://isim.az/upload/File/reports/49_TB_Kimyəvi_terapiya_W. pdf
2. INTERNATIONALUNIONAGAINSTTUBERCULOSISANDLUNGDISEASE

3. Stop TB Partnership
4.  TB Alliance
5. World Health Organization - Tuberculosis (TB)
6. WorldHealthOpranization - Stop TB
7. http://www.who.int/tb/ru
8. http://www.euro.who.int/tuberculosis.
9. http://www.unitaid.eu/
10. http://tb.org.ua/.
11. http://www.antibiotic.ru/.
12. http://www.pulmonology.ru/public-R.htm/.
13. http://www.ncbi.nlm.nih.gov
14. http://www.iuatld.org
15. http://www. erscnt.org

## V BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

**Metodik göstərişlər**

**Doktorantların** 3228.01 “Ftiziatriya” ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı “Ftiziatriya” fənni üzrə mühazirələr və praktiki məşğələlər dövründə, həmçinin auditoriyadankənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan zamanı komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- klinik-laborator, eksperimental və digər müayinələrin təhlilini aparmaq; klinik tədqiqatları planlaşdırmaq və aparmaq (müvafiq qaydalara riayət etməklə), təcrübənin nəticələrini işləmək və təhlil etmək, vərəmin klinik formalarını, onların diaqnostikasında və müalicəsində öyrənmək üçün retrospektiv, eyni zamanda aparılan və prospektiv  metodların əhəmiyyətini düzgün qiymətləndirməyi

bacarmaq, epidemioloji statistik məlumatların qiymətləndirilməsini və təşkil etməsini bacarmaq;

- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq; tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək; müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini təhlil etmək və qiymətləndirmək.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün beş ballıq sistem əsasında **5 (“əla”), 4 (“yaxşı”), 3 (“kafi”) və ya 2 (“qeyri-kafi”)** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| **Ballar** | **Qiymətləndirmənin meyarları** |
|---|---|
| **1** | **2** |
| **5 (əla)** | Doktorant “Ftiziatriya” fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant “Ftiziatriya” ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, vərəmin epidemiologiyası, etiologiyası, patogenezi, ağciyər və ağciyərdən kənar vərəmin klinik formalarını, vərəmin profilaktikası və müalicəsi prinsiplərini, aşkarlanması, diaqnostikası və differensial diaqnostikası haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi |

| | |
|---|---|
| | tədqiqatların ədəbiyyat mlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **4 (yaxşı)** | Doktorant “Ftiziatriya” fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant “Ftiziatriya” ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, vərəmin epidemiologiyası, etiologiyası, patogenezi, ağciyər və ağciyərdən kənar vərəmin klinik formalarını, vərəmin profilaktikası və müalicəsi prinsiplərini, aşkarlanması, diaqnostikası və differensial diaqnostikası haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **3 (kafi)** | Doktorant “Ftiziatriya” fənnini qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant “Ftiziatriya” ixtisası üzrə yerli və xarici tədqqiatmıların məlumatları, vərəmin epidemiologiyası, etiologiyası, patogenezi, ağciyər və ağciyərdən kənar vərəmin klinik formalarını, vərəmin profilaktikası və müalicəsi prinsiplərini, aşkarlanması, diaqnostikası və differensial diaqnostikası haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatların ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirməkdə çətinlik çəkir. |

| | |
|---|---|
| **2 (qeyri-kafi)** | Doktorant sualın məzmununu kifayət qədər açıqlamır və “Ftiziatriya” fənnini mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant “Ftiziatriya” ixtisası üzrə yerli və xarici məlumatlar, vərəmin epidemiologiyası, etiologiyası, patogenezi, ağciyər və ağciyərdən kənar vərəmin klinik formalarını, vərəmin profilaktikası və müalicəsi prinsiplərini, aşkarlanması, diaqnostikası və differensial diaqnostikası haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla çox az tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilmir. |

## VI BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANINA HAZİRLAŞMAQ ÜÇÜN NÜMUNƏVİ SUALLARIN SİYAHISI

1. Azərbaycanda vərəmlə mübarizənin təşkilinin müasir sistemi.
2. ÜST, vərəmlə mübarizə proqramları.
3. Vərəm xəstəliyinin epidemioloji prosesinin xüsusiyyətləri, onun inkişafını təyin edən faktorlar.
4. Vərəmə görə epidemioloji vəziyyəti qiymətləndirmək məqsədi ilə istifadə olunan statistik göstəricilər.
5. Vərəmin inkişafında sosial-iqtisadi faktorların əhəmiyyəti.
6. Vərəmin etiologiyası. Mikobakteriyaların növləri.
7. Vərəm zamanı təbii rezistentlik. Vərəm əleyhinə immunitet.
8. Vərəm infeksiyasına qarşı makroorqanizmdə inkişaf edən yerli və ümumi reaksiyalar.

**9.** Vərəmin inkişafı və gedişində immunodefisitin rolu.

**10.** Vərəm infeksiyasının əsas mənbələri və yoluxma yolları.

**11.** Birincili və ikincili vərəmin patogenezi.

**12.** Vərəm zamanı inkişaf edən iltihabi prosesin patomorfoloji əsasları.

**13.** Vərəm zamanı mütləq diaqnostik meyarlar

**14.** Vərəmin inkişafına kömək edən səbəblər. Risk faktorları.

**15.** Vərəmin müayinəsində istifadə olunan müxtəlif metodların diaqnostik dəyəri.

**16.** VMB-nın aşkar edilməsi, üsulları və onların diaqnostik dəyəri.

**17.** Vərəmin müayinəsində rentgenoloji metodlar.

**18.** Tuberkulin diaqnostika. Tuberkulinə qarşı infeksion və postvaksinal həssaslıq.

**19.** İGRA testlər, Diaskin testin vərəmin diaqnostikasında rolu.

**20.** Vərəmin endoskopik diaqnostikası və morfoloji verifikasiyası

**21.** Vərəmin spesifik profilaktikası. KJB vaksinasiyanın rolu.

**22.** Vərəmin sanitar profilaktikası. Vərəm əleyhinə sanitar-epidemik təşkilatların və ümumi praktika həkimlərinin birgə işi.

**23.** Uşaq və yeniyetmələrdə vərəm intoksikasiyası, klinikası, diaqnostikası, differensial diaqnostikası.

**24.** İlkin vərəm kompleksi.

**25.** Döş qəfəsi daxili limfa düyünlərinin vərəmi.

**26.** Ağciyərlərin hematogen səpələnmiş vərəmi.

**27.** Miliar vərəm.

**28.** Ocaqlı vərəm.

**29.** İnfiltrativ vərəm.

**30.** Kazeoz sətəlcəm.

**31.** Ağciyərin tuberkuloması.

**32.** Ağciyərin kavernoz vərəmi.

**33.** Ağciyərlərin fibroz-kavernoz vərəmi.

**34.** Ağciyərlərin sirrotik vərəmi.

**35.** Vərəm plevriti, empiyema. Plevritlərin differensial diaqnostikası.

**36.** Yuxarı tənəffüs yollarının vərəmi. Qırtlağın, traxeya və bronxların vərəmi.

**37.** Beyin qişalarının və mərkəzi sinir sisteminin vərəmi.

**38.** Sümük və oynaqların vərəmi.

**39.** Sidik-tənasül orqanlarının vərəmi.

**40.** Periferik limfa düyünlərinin vərəmi.

**41.** Abdominal vərəm.

**42.** Dəri və dərialtı piy toxumasının vərəmi.

**43.** Gözün vərəmi.

**44.** Böyüklərin və uşaqların dispanser qeydiyyat qrupları. Ftiziatrın və ümumi praktika həkiminin birgə işinin taktikası və tədbirləri.

**45.** Vərəmin müalicəsinin müasir taktikası prinsipləri. Vərəm əleyhinə preparatlar. Vərəmin müalicəsində kombinə olunmuş preparatların istifadəsi.

**46.** Ftiziatriyada dərmanlara qarşı rezistentlik problemi.

**47.** Vərəmli xəstələrin ambulator şəraitdə müalicəsinin təşkili.

**48.** Xəstələrin vərəmin müalicəsinə görə qruplaşması.

**49.** Vərəmli xəstələrin patogenetik müalicə üsulları. Vərəmli xəstələrin sanitar-kurort müalicəsi və onun xəstələrin reabilitasiyasında rolu.

**50.** Ftiziatriyada təxirə salınmaz vəziyyətlər ( ağciyər qanaxması, spontan pnevmotoraks).

**51.** Vərəmin müalicəsində kollapsoterapevtik üsullar. Göstərişlər, əks göstərişlər və effektivlikləri.

**52.** Vərəmli xəstələrin cərrahi müalicə üsulları. Vərəmin müxtəlif formalarında cərrahi müalicəyə göstərişlər.

**Elmi kvalifikasiya işinə görə suallar.**

1. Elmi-tədqiqat işinin aktuallığının əsaslandırılması.
2. Elmi-tədqiqat işinin məqsədinin və tapşırıqlarının əsaslandırılması.
3. Qarşıya qoyulan məqsəd və tapşırıqların həllinə uyğun elmi məlumatların alınması üçün tədqiqat üsullarının seçilməsi.

4. Əldə edilmiş nəticələrin işlənməsi üçün müasir statistik üsullar.
5. Nəticələrin və praktik tövsiyyələrin təqdim edilməsi üçün tənqidi qiymətləndirmə üsulları.
6. Fənnin tədris-metodik və informasiya təmini (çap, elektron materiallar, internet və s. şəbəkə resursları).